

# "Salam olsun insanın sevgi üfüqlərinə"

***SƏRVAZ HÜSEYNOĞLU***

***Şair-publisist Sərvaz Hüseynoğlu görkəmli alim, akademik Rafael Hüseynovun yaradıcılığını izləyən kitabını çapa hazırlayır. Həmin kitabdan bir parçanı təqdim edirik.***

Bütün müqəddəs, səmavi kitablar anladır ki, yeddi arxa dönənini unutma, doğmlarına baş çək, qoxusunu al...

Onun doğmaları, ən yaxından yaxınları Mövlana Cəlaləddin Rumidi, Şəms Təbrizidi, Füzulidi, Mir Möhsün Nəvvabdı, Cabbar Qaryağdıoğludu, Seyiddi və bu sıradan olan yüzlərlə ustadlarımız, sənət korifeylərimiz... "Elə bil onların ailəsində doğulub" (F.Qoca), elə bil lakmus kağızı kimi onları özünə çəkib, özününküləşdirib; xatirələrini əziz tutmaq, daha uzun zamanlara götürmək üçün. Yeni həyat, yeni nəfəs vermək naminə. Rafael Hüseynov "Yurdun adındakı can" kitabında taleyindən söz açdığı şəxslərdən biri barəsində yazır ki, "Abbasəli müəllimin nəzərində Vətənin tarixi və unudulmaz övladlarıyla bağlı hər yadigar, hər kağız parçası qiymətə sığmayan incilərdi... "

### *Və bu fikirlər*

həm də ona görə xüsusi bir minnətdarlıq duyğusu, qədirbilənliklə oxunur ki, deyilən fikirlər eynilə Rafael müəllimin öz yazılarına da aiddi, mayası eyni xəmirdən tutulanların, torpağı eyni yerdən götürülənlərin yazıya münasibəti belədi.

**Sənətin atəşi-eşqi canına can qatan, bu yolda cana can fəda etməyin örnəyini yapan görkəmli bilim, irfan əhlidi Rafael Hüseynov...**

İlkdən, əzəldən tapındığı həqiqətdi ki, "ta bilinə hər kişinin təbi ilə haləti" (Babur Şah).

***

Tarixə Allahın kitabı kimi əl uzatdı. Qisməti nəqli-kəlam olanların işığına yeridi. Eynən, Şah İsmayıl Xətai demiş, sufidi təriqətdə, həqiqətdə abdaldı.

"Xətti rüxi-canını" (Ruhi Bağdadi) oxuya bilməsinin kamilidi.

Düşüncələrinin bəndini açdıqca gözəl olanlardandı.

Füzulidən yazdıqca Füzulidəşdi! Mir Möhsün Nəvvabdan yazdıqca Nəvvalaşdl!

Üzeyirləşməyin yolunu Üzeyir bəydən yazmaqda buldu.

Cavid ömrünə vardıqca Cavidləşdi. Müslümə endikcə Müslümləşdi. Cabbarlaşdı, Seyidləşdi, Bülbüldə, Xan əmidə, Segah İslamda, Zülfüdə, Yaqub Məmmədovda yaşadı...

Məhsəti Gəncəvidən, Xurşid Banu Natəvandan, Nigar bint Osmandan, Nigar Rəfibəylidən, Mişkinaz Caviddən, Yavər xanımdan, Fatma Muxtarovadan yazmağı əsl kişilik bildi.

Bir-bir sayıb-sadalamaq adlar siyhısına çevirər təqdim edilən bu yazını; yüzlərlə səhifə dolar, qapanar! Çeşidli adlar siyahısını yaddaşımda canlandırdıqca qos-qoca türk ozanı Yusif dədənin örnək deyiminə əl apararı oluram: "Salam olsun insanın sevgi üfüqlərinə".

Yaşayırlar, davam edirlər, gələcək sabahlara açılırlar.

Çağdaş ictimai-siyasi, fəlsəfi fikrin tez-tez eşidilən örnəklərdəndi, deyirlər: "Dünya itirir... Amerika itirir, Rusiya itirir, İngiltərə, Fransa itirir. Təbiətin ümumi ahəngindən, harmoniyasından uzaq düşdüklərinə görə... Əvəzində Yaponiya qazanır; çünki təbiətlə harmoniyadadır..."

**Rafael Hüseynov da bu sıradadı - qazananlardandı. Çünki böyük təbiətlərlə (və bu böyük təbiətlərin upuzun bir sıralanması var) harmoniyada, bir aradadı.**

***

Quş uçur, ağac çiçəkləyir, səhər açılır, duman çəkilir. Demir ki, uçuram, demir ki, çiçəkləyirəm, demir ki, açılıram, çəkilirəm... Təbii prosesdi! Yaradıcı insanın yazmaq, yaratmaq ehtiyacı (və ehtirası) da belədi; təbii! Daha çox məqsədsiz... Amma R.Hüseynov o şəxsiyyətlərdən, yaradıcı insanlardandı ki, niyə yazdığının, nədən yazdığının fərqindədi. O, yazmaqdan daha çox yaşadır, yazmaqdan daha çox anladır. Yazmaq onun üçün yaşatmaq və anlatmaq vasitəsidir. Haradasa, qosqoca, qədim bir qramofon valına bənzəyir; hər dövrəsində (fırlanışında) bütöv bir xalq sənəti xəzinəsinə nəfəs verir, onu həyata qaytarır və gələcəyə bitməz sabahlara qovuşur...

Onun yaradıcılığı ölümsüz sənət (və sənətkar) həqiqətlərinin etiraf məkanıdı. Səmimi, sadə, bütün gerçəklikləri özündə ehtiva edən bir məkan!

Vaxtdan ucada dayana bilənlərin yanındadı Rafael Hüseynov. Bu ömürdə (bəzən bir iş günü daxilində) çox sayda ömür yaşaya bilməyin aşiqi, xoşbəxtidi.

***

**Ədəbi zövqümün, üslubumun, sənətə baxışımın formalaşmasında fövqəladə yeri olan fikir adamı haqqında yazıram. Yazmaya bilmədiyim zamanın yazısıdı bu. Üslubu, fədakarlığı, zəhmətkeşliyi, inadkarlığı və zövqü ilə həmişə iç dünyamda (və önümdə) olan Ustadın barəsində.**

Ədəbi-bədii, mədəni həyatın çox ünlü simaları barəsində elə onların özləri qədər tanınan çox sayda bilim adamları dərin sayğılarla izlənən çox möhtəşəm əsərlər yazıb, fikirlər səsləndiriblər. Amma elə ki, bu yazılanlar və deyilənlər sırasında Rafael Hüseynovun fikirləri yer alır, mənzərə tamamilə dəyişir. Ovqat yeniləşir. Elə bil hər şey təzədən başlayır. Sanki zorlu bir deprem gerçəkləşir.

### *Adı tarixə gömülmüş*

Alpanaq dağı bir göz qırpımında yerlə-yeksan olur və əvəzində bütün gözəllikləri kölgədə qoyan Göygöl zühr edir. Təptəzə aləmin seyri başlayır. Rafael Hüseynov üslubunun sehri bu təzəlikdə və mükəmməllikdədi. O, yazdıqlarında yaşaya və yaşada bilir. Rafael Hüseynov mənim ədəbi taleyimə yazılarından çox-çox əvvəl Səslə daxil olub. İlk gənclik illərimdə. O zaman ki, heyvandarlıq sahəsində çalışan atam ailəmizin dağ-aran arası köçəri həyatına balaca bir əl radiosunun varlığını qatmışdı. Həftənin bəlli bir günündə və saatında efir məkanında "Axşam görüşləri" verilişini dinləməyin vaxtını qaçırmaz-



dım. Xüsusilə də Rafael müəllimin hazırladığı proqramı. Həmin proqramın "Yanlış da bir naxışdı" bölümünü izləməyin bir ayrı hüzuru vardı.

Rafael müəllmin yatımlı, nostalji nəfəs almalarla izlənən səsi o verilişin ovqatına xüsusi bir rəng qatırdı. Dinləyicini ovsunlayırdı. "Neydə insan səsinin yanğısı" olduğuna inandırırdı.

Şamaxılı ustad xanəndə Mirzə Məhəmmədhəsənin, bakılı Seyid Mirbabayevin və s. küskün taleyi onun təqdimatında unudulmaz bir röya, əfsanə kimi tarixləşir, yeni ömür qazanırdı. Və bu təqdimatlar zamanı heç kəs onun kimi kövrəldə bilməzdi. Rəfael müəllimin təqdimatlarında qəribə bir sehr, cazibə var, elə ilk kəlməsindəncə diriliş, təzələnmə havasına bürünür olursan. Zamansız bir aləm alıb aparır səni. Xalq yazıçısı Anarın qeyd etdiyi kimi, özün də onun maraqlı bir müsahibinə dönürsən. "Həyəcanlanırsan, kövrəlirsən... Qəhrəmanlarıyla birlikdə fərəhli saatları, acı günləri yaşayırsan, sevinirsən, dərdləşirsən, bəzən də yanıb-yaxılırsan. Ancaq bütün bu hissləri keçirə-keçirə ən çox fikrə dalırsan. Vaxt haqqında, vaxtın içində ömür sürən İnsan haqqında, onun Baxtı haqqında düşünürsən..."

### *Və bütün səmimiyyətimlə deyirəm ki,*

**bir çox ədəbi şəxsiyyətlərin diqqətindən kənarda qalmamağımda Rafael Hüseynovun "Vaxtdan uca", "Min ikinci gecə", "Yurdum adındakı can" kitablarının mənə verdiyi enerjimin, özünətəsdiq imkanının fövqəladə, unudulmaz yeri var. Bu ünvanlara çatmaq, dürlü azrularıma yetişmək yolunda körpüyə, dost əlinə dönüb bu kitablar.**

***

"Mən bu şeiri bilmirdim, eşitməmişdim, oxumamışdım, amma yüz şairin şeiri içində "Qız qalası - qulaq asır, həzin olur - bəsit olur" qafiyələrinin atamın olduğunu tanıyardım".

Anarın "Sizsiz"indəndi. Unudulmaz Rəsul Rzanın özünəməxsus üslubu barədə belə yazır.

### *Bu sətirlər*

**həm də mənim Rafael müəllimin yazı tərzi barədə olan qənaətlərimin ifadəsi kimidi. Minmin yazı, mətn içindən gözlərim (və ruhum) alır ki, bu, məhz Rafael Hüseynov üslubuna, məhz onun ədəbiyyatımıza gətirdiyi dolğun "sənədli roman" icadına bağlı deyimlər, xatırlamalardı: "Biz hamımız ölüb gedəcəyik. Bu sözlərsə ölməyəcək, daim qalacaq, müdam diri olacaq, həmişə dirilərlə olacaq..."**

Yaxud: "Qəlb ağrısı ilə yazıram - Azərbaycan Şəms Təbrizini tanımır... Adını bilmək hələ tanımaq deyil..."

Yaxud: "Görüşdülər, dost oldular, qardaş oldular, iki bədəndə bir can oldular və Cəlaləddin Rumi MÖVLANA-ya çevrildi, Sözə hökm edən ŞAİR-ə döndü"

Və yaxud və ilaxır və sairə... Sonsuza qədər ömürlü olan mətnlər, könül, ruh həbləri; hər məqamı hüzur gətirir, təvazö sərgiləyir.

***

Sevdiyim şairlərdən olan Çingiz Əlioğlunun şəhər həyatına adaptə oluna bilməyən "kənd uşaqları" barədə yazdıqlarıdı:

**Köhnə daxmaların tirləri kimi,**
**Bir azca köntöydü xasiyyətimiz.**

Mən o xasiyyət köntöylüyünü heç vaxt Rafael Hüseynovda sezmədim. Nə şəxsi, nə də ictimai-siyasi, ədəbi-bədii yaşamında.

İstədiyi kimi düşündüyünü, düşündüyü kimi danışdığını, danışdığı kimi olduğunu gördüm; mütəvazi, sufi əxlaqlı.

**"Dünyanın zənginliyi məhz bənzərsiz şəxsiyyətlərdi" deyirdi ingilis tarixçisi və filosofu Karleyl Tomas. Haqlı olaraq vurğulayırdı ki, belə adamların həyat tarixi, gücünün dəyəri, görünməmiş dərinliklər fəth etməsinə imkan yaradan şəxsi mülkiyyəti müqəddəsdi..." Dünyanın xoşbəxtliyi bənzərsiz insanlardadır. Və bu cür müqəddəs şəxsi mülkiyyət daşıyıcılarından biri olan Rafael müəllim barəsində düşünərkən ulu öndər Heydər Əliyevin çox dəyərli, unudulmaz bir fikrini xatırlayıram. Hesab edirəm bu dahiyanə fikirdə Rafael müəllimin özəl payı var: "Hər bir alim qiymətlidir. Ancaq nəzəriyyəti təcrübə ilə birləşdirən, fikirlərini tətbiq edə bilən, cəmiyyətdə xalqa konkret fayda gətirən insanlar alimlərin sırasında xüsusi yer tutur". Rafael Hüseynov üçün ədəbi, elmi, mənəvi, yəni İstedad qohumluğu hər cür qan qohumluğundan irəli olub və bu yöndən İstedada olan diqqəti, sufi xidməti onun hər kəsə doğma ziyalı obrazını tamamlayıb.**